**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**FƏRHAD AYDIN oğlu MİRZƏZADƏ**

# AZƏRBAYCAN İQTİSADİYYATINDA MODERNLƏŞMƏ PROSESİNİN MALİYYƏ-BANK MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞMƏSİ

İxtisas: 5307.01 – İqtisadi nəzəriyyə

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2018**



Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Hacıağa Baxış oğlu Rüstəmbəyov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Rasim Əmir oğlu Nəbiyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Asəf Mirzə oğlu Ağayev**

**Aparıcı təşkilat:** **Azərbaycan Texniki Universiteti**

Müdafiə 28 noyabr 2018-ci il il tarixdə saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən D02.051 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universiteti

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat “ 27” oktyabr 2018-ci ildə göndərilmişdir.

**D 02.051 dissertasiya şurasının**
**elmi katibi, iqtisad üzrə fəlsəfə**
**doktoru, dosent** **M.M.Sadıqov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Milli iqtisadiyyatların dünya təsərrüfatı sistemində apaıcı rola malik olması bir sıra vacib iqtisadi strukturların inkişafı əsasında əldə olunur. Belə iqtisadi strukturlardan biri də hər bir ölkənin maliyyə-bank sistemidir.

Maliyyə-bank sistemi milli təsərrüfatın dayanıqlığında və inkişafında vacib rol oynayır. Ölkədə makroiqtisadi sabitliyə nail olunmasında çevik maliyyə-kredit siyasətinin aparılması həlledici əhəmiyyətə malikdir. Eyni zamanda modernləşmə prosesinin də paralel aparılması çevik maliyyə-bank sisteminin mövcudluğunu zəruri edir.

Nəzərə alınmalıdır ki, Azərbaycanın maliyyə-bank sistemi tarixində müstəqillik illəri çətin, lakin dinamik və əhəmiyyətli dəyişikliklər dövrü kimi xarakterizə olunmuşdur. Nəticədə Azərbaycan bankları öz kommersiya mahiyyətini ciddi surətdə dəyişmiş, maliyyə sistemi isə tamamilə yenidən qurulmuşdur. SSRİ dövründə onlar başlıca olaraq hesablaşma funksiyalarının təmin edilməsi və dövlət maliyyəsinin təsərrüfat təşkilatları arasında yenidən bölgüsü işilə məşğul olurdular. Yeni dövrdə isə maliyyə-bank strukturları bank əməliyyatlarının dairəsini xeyli genişləndirən bazar strukturlarına çevrilmişlər.

Hazırkı qloballaşma prosesində maliyyə sisteminin yeri və banklar arasında mövcud rəqabət şəraiti, bank işinin müasir texnologiyalara əsaslanmasını vacib etmişdir. Bu zərurətdən ölkə iqtisadiyyatının bütövlükdə modernləşməsində maliyyə sisteminin təkmil olması və bank işinin yeni mexanizmlər əsasında fəaliyyət göstərməsi əsas götürülməlidir. Çünki, maliyyə-bank sistemində islahatların aparılması, təkcə ölkə iqtisadiyyatının tələbi baxımından deyil, həmçinin beynəlxlaq maliyyə-valyuta münasibətlərinin tələbləri baxımından da nəzərə alınmalıdır.

Maliyyə-bank işi fəlsəfəsindən irəli gələrək respublikamızda maliyyə sisteminin sabitliyi və dayanıqlığı baxımından dövlət Mərkəzi Banka sərbəst pul-kredit siyasəti yeritmək və dövriyyəyə pul buraxmaq hüququ vermişdir. Həmçinin, maliyyə-bank sistemini təşkil edən strukturların yeni fəaliyyət növləri ilə məşğul olmaq, qiymətli kağızlarla əməliyyatlar aparmaq, lizinq, faktorinq və s. əməliyyatlara qoşulmaq imkanları genişlənmişdir. Konkret olaraq banklar öz fəaliyyətində bank resurslarının tərkibinə pul vəsaitləri, əmtəə-maddi qiymətlərlə yanaşı qiymətli kağızları da daxil etmişdir. Bu amil ölkə iqtisadiyyatının modernləşməsində maliyyə-bank sisteminin rolunun əhəmiyyətli dərəcədə artdığından xəbər verir. Respublikada qiymətli kağızlar bazarının təşkil olunmasında bankların rolu artmış və bu sahədə qabaqcıl xarici təcrübəyə üstünlük verilmişdir.



Bir qayda olaraq maliyyə-bank sisteminin iş üslubunun və metodlarının stereotiplərdən azad olunmasında, həm daxili proseslər sahəsində, həm də müştərilərə xidmət sahəsində bank işinin təşkilinin daha yeni və müasir üsullarının təklif edilməsinə daima ehtiyac vardır. Bu ehtiyac təkcə ölkə iqtisadiyyatının modernləşməsi baxımından deyil, həmçinin maliyyə-bank sisteminin özünün inkişaf xarakterindən irəli gəlir. Belə ki, 2015-ci ildə milli valyutanın devalvasiyası nəticəsində yaranan problemlər bir daha onu göstərdi ki, ölkənin maliyyə-bank sisteminin modernləşmə baxımından yetərli çevik resurslara və fəaliyyət mexanizmlərinə böyük ehtiyac vardır. Belə bir problemlərin və çətinliklərin aradan qaldırılması üçün ciddi elmi tədqiqatlar aparılmalı, təhlil edilərək problemlərin həlli istiqamətləri göstərilməlidir. Tədqiqat işinin seçilməsini də məhz sadalanan bu cəhətlər aktual etmişdir.

**Problemin öyrənilmə səviyyəsi.** Müasir dövrdə iqtisadiyyatda modernləşmə prosesinin maliyyə-bank mexanizmləri ilə bağlı ayrı-ayrı problemlərin tədqiqi ilə bir sıra Azərbaycan və dünya ölkələrinin iqtisadçı alimləri məşğul olmuşlar. Bunların sırasında Azərbaycan alimlərindən Səmədzadə Z., Abdullayev S., Ələkbərov Ə., Xudiyev N., Məmmədov Z., Məmmədov S., Sadıqov S., Bağırov D., Aslanov A., Bağırov M., Bəşirov R., Vəliyev D., Vaqifoğlu D., Əsgərova R., Ağayev A., Qurbanov C., Qasımlı V., xarici iqtisadçı alimlərdən Abraham M., Apter D., Andrianov B., Balabanov İ., Babin A., Boumqarten L., Boer F., Bendix R., Bratko A., Qorina T., Qaqlayev P., Qavrov S., Qiriev S., Qiddens E., Qryaznova A., Corter R., Choudrhy M., Chendler V., Fisher L., Weil R., Klijn E., Eisenstadt S., Grenring H., Branakoviç S., Josse E., Walwyn D., Thorn R., Taylor D. və başqaları iqtisadiyyatda modernləşmə prosesi, bank sistemi, onun ayrı-ayrı seqmentləri, tərəfləri haqqına kifayət qədər tədqiqat aparmışlar.

Lakin bütövlükdə Azərbaycan iqtisadiyyatında modernləşmə prosesinin maliyyə-bank mexmanizmləri haqqında kompleks şəklində tədqiqat işi kifayət qədər aparılmamışdır. Həmçinin, bu sahə ilə dolayı əlaqəli olan tədqiqatlar da son dövrlər maliyyə-bank mexanizmində baş verən prosesləri özündə ehtiva etməmişdir ki, bu da yeni yanaşmaları şərtləndirir.

Göstərilən problemlərin kifayət qədər tədqiq edilməməsi, onların nəzəri cəhətdən araşdırılmasının davam etdirilməsi və həmin problemlərin səmərəli həll edilməsi üçün konkret mexanizmlərin hazırlanması zərurəti dissertasiya işinin mövzusunun seçilməsini, işin məqsəd və vəzifələrini müəyyənləşdirdi.

**Dissertasiya işinin məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan iqtisasiyyatında modernləşmə prosesinin maliyyə-bank mexanizmlərinin fəaliyyətini araşdırmaqdan, bu sahədə mövcud olan problemləri tədqiq etməkdən və bu problemlərin aradan qaldırılması üçün elmi cəhətdən əsaslandırılmış

təkliflərin və tövsiyələrin hazırlanmasından ibarətdir.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi zəruri hesab edilmişdir:

- İqtisadi modernləşmənin maliyyə-bank mexanizmini təhlil etmək.
- Azərbaycanda maliyyə-bank mexanizmlərinin təşkilatı-iqtisadi problemlərini müəyyənləşdirmək;
- Azərbaycanda maliyyə sisteminin idarə edilməsi mexanizmlərinin struktur elementlərini təhlil etmək;
- Bank multiplikatorunun iqtisadi artıma təsirini qiymətləndirmək;
- Maliyyə-bank mexanizminin seqmenti kimi pul-kredit mexanizmini və onun modernləşmə xüsusiyyətlərini araşdırmaq;
- İnvestisiya siyasətinin təkmilləşdirilməsində maliyyə-bank mexanizminin rolunu qiymətləndirmək;
- Maliyyə-bank vəsaitlərinin innovasiya yönümünün yaxşılaşdırılması yollarını müəyyənləşdirmək;
- Modernləşmə prosesində maliyyə-bank institutlarının rəqabətqabiliyyətliliyinin artırılması istiqamətlərini müəyyənləşdirmək;
- Azərbaycan iqtisadiyyatında modernləşmə prosesinin maliyyə-bank mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi yolları haqda əməli təklif və tövsiyyər hazırlamaq.

**Tədqiqatın obyektini** Azərbaycan iqtisadiyyatında modernləşmə prosesində iştirak edən maliyyə-bank strukturları təşkil edir.

**Tədqiqatın predmetini** iqtisadi modernləşmənin maliyyə-bank mexanizmlərinin təkmilləşdirilməsi problemləri təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** ümumi iqtisadi nəzəri biliklər, dövlət başçısının bu problemlə bağlı fərman və sərəncamları, Azərbaycan Respublikasında qəbul olunmuş sosial-iqtisadi inkişaf konsepsiyaları, müxtəlif dövlət proqramları, qanunlar və normativ-hüquqi sənədlər, tanınmış iqtisadçıların modernləşmə və maliyyə-bank mexanizmləri problemləri ilə bağlı elmi baxışları, tədqiqatları təşkil edir.

**Tədqiqatın informasiya bazasını** Dövlət Statistika Komitəsinin, Maliyyə Bazarlarına Nəzarət Palatası, İqtisadiyyat Nazirliyinin, Mərkəzi Bankın, Maliyyə Nazirliyinin, Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun statistik və hesabat materialları, bu problemə həsr edimiş beynəlxalq konfrans və forumların materialları, müxtəlif dövri nəşrlər və çoxsaylı internet saytları təşkil edir.

Tədqiqatın yerinə yetirilməsi prosesində ümumi tədqiqat metodu kimi dialektik və xüsusi iqtisadi tədqiqat metodları olan analitik, monoqrafik, abstrakt, məntiqi, riyazi və konstruktiv hesablama, statistik təhlil, qruplaşma,


balans və müqayisəli təhlil, müşahidə metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi** elmi cəhətdən əsaslandırılmış aşağıdakı müddəalardan ibarətdir:

- İqtisadi modernləşmənin təmin olunmasının institsional aspektləri müəyyən edilmiş, onun struktur elementləri göstərilmişdir;
- Azərbaycanın müasir bank sisteminin inkişafının makroiqtisadi amilləri göstərilmiş və onun qlobal bank sisteminin inkişaf meyilləri ilə müqayisəli təhlili aparılmışdır;
- Ölkə iqtisadiyyatının maliyyə mexanizminin səmərəli fəaliyyət göstərməsinin şərtləri elmi cəhətdən əsaslandırılmışdır;
- Azərbaycanda modernləşmə prosesinə və iqtisadi artıma bank multiplikatorunun təsiri mexanizimi tədqiq edilmişdir;
- Bank fəaliyyətinin rentabelliyinin hesablanması və təhlilində Düpon metodu və Qordon modelinin üstünlükləri müqayisəli şəkildə göstərilmişdir;
- Maliyyə investisiya layihələri üzrə səmərəliliyin hesablanmasında regional differensasiya amili müəyyən edilmişdir;
- Azərbaycan iqtisadiyyatınnın modernləşməsinin maliyyə-bank mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi istiqamətində əməli təklif və tövsiyyər hazırlanmışdır.

**Araşdırmanın nəzəri əhəmiyyəti.** İşdə əldə edilmiş elmi nəticələr Respublika iqtisadiyyatının tənzimlənməsinin maliyyə mexanizmlərinin təkmilləşdirilməsi üçün həm nəzəri, həm də metodiki baza kimi istifadə edilə bilər.

Əsas nəzəri müddəalar, təklif və tövsiyələr dövlətin pul-kredit siyasəti sahəsində müvafiq normativ-hüquqi sənədlərin, proqramların, təlimat materialların hazırlanması zamanı istifadə edilə bilər.

**Elmi araşdırmaların praktiki əhəmiyyəti.** Dissertasiya işinin materialları dövlət orqanları tərəfindən maliyyə sferasında məqsədli islahat proqramları hazırlanarkən istifadə edilə bilər.

Eyni zamanda dissertasiya işinin materialları davamlı iqtisadi inkişaf, bank sisteminin dövlət tənzimlənməsi ilə bağlı tədris proqramlarının təkmilləşdirilməsi məqsədi ilə də istifadə edilə bilər, həmin materiallar tədris kurslarının məzmunun daha da dərinləşdirilməsi üçün yeni imkanlar təqdim edir.

Dissertasiya işinin nəticələri Azərbaycan Respublikası Mərkəzi Bankı və İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyinin, kommersiya banklarının əməli fəaliyyətində istifadə oluna bilər.

**Dissertasiya işinin elmi nəticələrinin aprobasiyası və tətbiqi** iqtisadiyyatın maliyyə-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi probleminə həsr edilmiş elmi məqalələr formasında həyata keçirilmişdir. Dissertasiya işinin əsas müddəaları və nəticələri beynəlxalq və respublika elmi-praktiki konfrans-

larda, elmi seminarlarda müzakirə edilmiş və bəyənilmişdir. Tədqiqatın əsas nəticələri və təklifləri Azərbaycan Banklar Assosiasiyası tərəfindən istifadə olunmaq üçün qəbul edilmişdir (18-439 saylı 26 oktyabr 2018-ci il tarixli tətbiqi arayış).

Dissertasiyanın mövzusu üzrə 7 elmi əsər dərc edilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi**. Dissertasiya giriş, üç fəsil, nəticə, 186 adda istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işi 9 cədvəl, 7 şəkil olmaqla 150 səhifədən ibarətdir.

**Dissertasiyanın mündəricatı**

**Giriş**

**I Fəsil. İqtisadiyyatın modernləşməsinin nəzəri-metodoloji əsasları**

1.1. İqtisadi modernləşmə prosesinin nəzəri əsasları

1.2. İqtisadi modernləşmənin əsas istiqamətləri və mexanizmləri

1.3. İqtisadi modernləşmənin maliyyə-bank mexanizmləri

**II Fəsil. Azərbaycanda iqtisadi modernləşmənin maliyyə-bank mexanizmlərinin təşkilatı-iqtisadi problemləri**

2.1. Maliyyənin idarə edilməsi mexanizmlərinin struktur elementlərinin təhlili

2.2. Bank multiplikatorunun iqtisadi artıma təsirinin qiymətləndirilməsi

2.3. Maliyyə-bank mexanizmlərinin pul-kredit seqmentinin qiymətləndirilməsi

**III Fəsil. Azərbaycan iqtisadiyyatında modernləşmə prosesinin maliyyə-bank mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi**

3.1. Maliyyə-bank mexanizmlərinin təkmilləşdirilməsinin investisiya istiqaməti

3.2. Maliyyə-bank resurslarının innovasiya yönümlülüyünün sürətləndirilməsi yolları

3.3. Modernləşmə prosesində maliyyə-bank institutlarının rəqabətqabiliyyətliliyinin artırılması istiqamətləri

**Nəticə və təkliflər**

**İstifadə edilmiş ədəbiyyat**

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**1. İqtisadiyyatın modernləşdirməsinin metodoloji əsaslarının tədqiqi.** Dissertasiya işində anlayış aparatının və elmi yanaşmaların inkişaf xüsusiyyətləri, həmçinin, iqtisadiyyatın modernləşdirilməsi prosesinin nəzəriyyəsi, metodologiyası və praktikası araşdırılmışdır. Eyni zamanda elmi təhlil iqtisadiyyatın moderləşdirilməsinin maliyyə-bank mexanizmlərinin nəzəri əsaslarını



da əhatə etmişdir.

İşdə qeyd edilir ki, modernləşmədə bütün faktorlar yeni tələblərə, keyfiyyət göstəricilərinə və şərtlərə uyğunlaşdırılır. İqtisadi modernləşmə isə istehsal avadanlıqlarının mütəmadi olaraq yenilənməsi, istehsalatın səmərəli idarəetmə formasının tapılması, enerji sərfinin azaldılması, elmi yeniliklərin iqtisadiyyata tətbiqi və nəticədə əmək məhsuldarlığının artmasıdır.

İşdə belə bir müddəa əsaslandırılır ki, iqtisadi modernləşmə üçün vacib artributlarla yanaşı mövcud şəraitin hazırlığı da mühüm rol oynayır. Bu isə iqtisadi modernləşmənin sürətlənməsinə və son nəticələrin az məsrəflə və tez əldə edilməsinə şərait yaradır. İstənilən iqtisadiyyatın vəziyyəti, onun sistem halında modernləşməsi yeni ideyaların tətbiqi mütləq sabit maliyyə mənbələri ilə təmin edilməlidir.

Modernləşmənin tarixən Avropada və ABŞ-da başlandığı və sonradan onun bütün dünya regionlarına yayıldığı birmənalı olaraq qəbul edilir. Modernləşmənin bu bölgələrdən digər bölgələrə yayılması üçün innovativ yeniliklər dəyişilməli və modernləşmənin yeni formatı alınmalı idi.

Qeyd edilir ki, qərb ölkələrində baş verən modernləşmə cəmiyyətin öz daxili inkişafından irəli gələn nəticədir. Qərb dünyasına aid olmayan ölkələrdə modernləşmə daha çox uyğunlaşma və ya mexaniki köçürmə yolu ilə baş verir.

Ancaq bununla belə Qərb təcrübəsinə əsaslanan modernləşmə prosesinin cəmiyyətlərə təsiri nəticəsiz olmur. Çünki, nəticə olaraq gətirilən mədəniyyətlə yerli mədəniyyətin qovuşması və təkamülü baş verir.

İqtisadiyyatda "modernləşmə" dedikdə, iqtisadi inkişaf başa düşülür.

İşdə iqtisadi modernləşmənin aşağıdakı tərkib hissələri fərqləndirilir:

- İqtisadi sistem institutlarının struktur differensasiyası, yəni ciddi şəkildə müəyyən edilmiş funksiyanı yerinə yetirən və bir-birilə sıx əlaqəli olan yeni iqtisadi institutların yaranması.
- İnnovasiya texnologiyalarının istifadə edilməsi hesabına iqtisadi sistemin situasiyalara adaptasiyasının artırılması.
- İnstistusional məhdudiyyətlərin aradan qaldırılması və struktur institusional transformasiya.

İqtisadiyyatın modernləşməsi üçün həm dövlət, həm özəl, eyni zamanda dövlət-özəl maliyyə mənbələrindən istifadə etmək olar. Modernləşmə layihəsi ölkə iqtisadiyyatının əsas iqtisadi göstəricilərinin artmasına gətirib çıxartmalıdır.

İqtisadiyyatın modernləşməsi ilk növbədə tədricən xammal ixracından hazır məhsul ixracına keçidi nəzərdə tutur. Bunun üçün ilk növbədə dövlətin dəstəyi ilə dövlətin pul-kredit siyasəti, investisiya proqramının hazırlanması və maliyyə mənbələrinin müəyyənləşdirilməsidir.

Bu aspektdə modernləşmənin aşağıdakı formalarını səciyyələndirmək

olar:

- İqtisadiyyat texniki-texnoloji keyfiyyətcə dəyişilir. Cəmiyyətdəki sosial və siyasi münasibətlərin dəyişməsi isə ikinci plana keçir. Modernləşmə sifarişi mütləq dövlət elitası tərəfindən gəldiyinə görə dövlətin möhkəmləndirilməsi baş verir.

- İqtisadiyyatın texniki-texnoloji dəyişməsi avtomatik olaraq cəmiyyət institutlarının norma və dəyərlərinin də dəyişməsinə səbəb olur. Buna nümunə kimi XX əsrin 90-cı illərindən başlayaraq keçmiş SSRİ ərazisində yaranmış yeni dövlətlərdə, o cümlədən Azərbaycanda və Şərqi Avropa dövlətlərində gedən modernləşmə prosesləri göstərmək olar .

İqtisadi modernləşmənin əsas məqsədlərindən biri də bütün resursların iqtisadi sistemin aparıcı sahələrinə yönəltməkdən ibarətdir. Həmin sahələr əksər hallarda lokomotiv rolunu oynayaraq bütövlükdə iqtisadiyyatı yeni səviyyəyə çıxarda bilirlər.

Şəraitdən asılı olmayaraq iqtisadi modernləşmə keçirilən bütün ölkələrdə dövlətin rolu böyükdür. Dövlətin modernləşmə prosesində iştirakı birbaşa və ya dolayı qiymətləndirirlər. Birbaşa iştirak dövlətin inzibati yolla bütün əsas investisiyaların dövlət xətti vasitəsilə həyata keçirilməsidir. Ancaq dövlətin iqtisadi proseslərdən tam kənarlaşması da iqtisadiyyatın inkişafına mənfi təsir edən ifrat metod hesab edilir. Bu münasibətlərdə ən məqbul variant dövlətin dolayı yolla iqtisadiyyatın inkişafında və onun problemlərinin həllində iştirak etməsidir.

İqtisadiyyatın modernləşməsində aktual məsələlərdən biri də insan kapitalının inkişafıdır. Bunun üçün intellektual kapitalın artırılması prosesi getməli, təhsil, mədəniyyət sahələrinə böyük investisiyalar yatırılmalı, səhiyyə və onunla bağlı olan sahələr modernləşməlidir.

Modernləşmədən əvvəlki iqtisadi sistemi dəyişən makroiqtisadi yeniliklər ilk növbədə iqtisadiyyatın rəqabətqabiliyyətlini artırmalıdır. Bəzi hallarda bazar iqtisadiyyatı şəraitində şəxsi kapitala əsaslanan şirkətlərin daha səmərəli fəaliyyət göstərməsi əsas hesab edilir. Burada kapitalın çevikliyi və istehsal sahələrinin tez yenidən qurulma imkanlarının olması əsas faktordur. Ancaq onun zəif tərəfi stabil maliyyə təminatının olmamasıdır.

Dövlətin çevik vergi sistemi, özəl şirkətlərə güzəştli maliyyə vəsaitlərinin ayrılması, təhsilə, ilk növbədə universitet təhsilinə dövlətin dəstəyi bütün hallarda inkişafa ciddi və müsbət təsir edir.

Dissertasiyada xüsusi qeyd edilir ki, modernləşməyə yeni başlayan ölkələrin hər biri maliyyə çatışmazlığı problemi ilə üzləşir. Bu ölkələrin bir qismi bu məsələni təbii sərvətlər satışı ilə həll etməyə çalışır. Təbii sərvətləri olmayan bir sıra ölkələr isə xarici ölkələrdən və beynəlxalq maliyyə qurumlarından kredit almağa üstünlük verirlər. İqtisadi modernləşmənin maliyyələşməsində vacib şərtlərdən biri də özəl bankların bu işə cəlb edilməsidir. Onlar isə əsasən riskli əməliyyatlardan çəkinir, tam zəmanətli gəlirli layihələrə maraq göstərirlər.



Xarici banklar isə ümumiyyətlə milli bazarı tam öyrənmədən, ora daxil olmağa maraq göstərmirlər. Bu səbəbdən də iqtisadi modernləşmədə ilk növbədə xammal istehsalı, xidmət, ticarət, ərzaq istehsalı daha böyük maraq doğurur.

**2. Azərbaycan iqtisadiyyatında modernləşmənin istiqamətlərinin və mexanizmlərinin təhlili.** Azərbaycan iqtisadiyyatının müasirləşdirilməsi ilə əlaqədar aparılan araşdırmalarda ölkə iqtisadiyyatının xam mala əsaslanan inkişaf modelindən innovasiyalı inkişaf modelinə keçidin mahiyyəti və xüsusiyyətləri də tədqiq olunmuşdur. Modernləşdirmənin, transformasiya və iqtisadiyyatın şaxələndirilməsinin mühüm cəhətləri müəyyənləşdirilir: sahələrin müasir texnoloji bazaya keçidi, istehsalın funksional mürəkkəbləşməsi, qlobal bazarlara inteqrasiya.

Qeyd edilir ki, modernləşmə təkamül xarakterli olmalı, o bütün səviyyələri və sahələri əhatə etməli, bu zaman başlanğıc və son məqsədlər müəyyənləşdirməli, yenilənmənin baş verdiyi mühitin keyfiyyət göstəriciləri dəyişdirilməlidir.

1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının iqtisadiyyatının əsasını neft sektoru üzərində qurulduğu aydınlaşdı. Ancaq keçid dövrü və müharibə şəraiti bu sahənin də perspektivini problemli etdi. Sahənin inkişafı, yeni texnologiyaların tətbiqi üçün maliyyə vəsaitlərinin çatışmazlığı üzə çıxdı.

Azərbaycan Respublikasında 15 iyun 1993-cü il hakimiyyət dəyişikliyindən sonra iqtisadi sahədə də dəyişikliklər üçün geniş perspektivlər açıldı. Təcrübəli siyasətçi H. Əliyevin iqtisadi modernləşməyə ciddi diqqət yetirəcəyi və xarici ölkə təcrübəsindən hərtərəfli istifadə edəcəyi tam aydın idi. Azərbaycanda mülkiyyət formalarının dəyişdirilməsi prosesi başlanıldı. Həmçinin, bəzi xarici ölkələrin təcrübəsi nəzərə alınaraq, ilk növbədə xidmət və kiçik istehsal sahələrində özəl kapitalın rolunun artırılmasından başlanıldı.

1993-cı ildə qəbul edilən "Dövlət mülkiyyətinin özəlləşməsi haqqında" Qanununa əsasən neft-qaz sənayesi strateji əhəmiyyətli sektor kimi özəlləşdirilməyə salınmadı. Buna səbəb kimi bu sahənin inkişafına xüsusi dövlət qayğısının olması zərurəti hesab edilirdi. 20 sentyabr 1994-cü ildə Bakıda Xəzər şelfində yataqların birgə işlənməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında 30 il müddətinə müqavilə imzalandı.

2003-cü ildə Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti olan İlham Əliyev özünün "Каспийская нефть Азербайджана" kitabında bununla bağlı yazırdı: "...respublika "əsrin kontraktına" görə iqtisadi planda aşa-

ğıdakıları əldə etdi:

- layihənin işə salınması Azərbaycan neftini Avropa bazarına çıxmağa imkan verdi, bu isə öz növbəsində daha əlverişli şərtlərlə və işləyən mexanizmlə digər perspektivli sahələrə daxil olmağa imkan verdi".

Azərbaycan iqtisadiyyatının yenidən qurulmasında və qeyri-neft sektorunun inkişafında aqrar sektordakı ciddi islahatlar həyata keçirildi. 1995-ci il mart ayında prezident Heydər Əliyevin sərəncamı ilə yaradılan aqrar islahatlar komissiyasının hazırladığı "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının qanunu 1996-cı ilin iyul ayında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edildi.

29 sentyabr 1995-ci ildə "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı" qəbul edildi.

Proqramda mülkiyyətin özəlləşdirilməsi sahələri, istiqamətləri, müddəti, mərhələləri və s. məsələlər öz hüquqi əksini tapmışdı. Bu vəzifələr isə yeni müstəqil ölkənin iqtisadiyyatını yeni tələblər əsasında yenidən qurulmasını, çox mülkiyyətliliyin və rəqabətli, bazar münasibətlərinin qurulmasına dəstək verdi, həmçinin, Azərbaycan özünün spesifik iqtisadi modelini tapmağa, qeyri-neft sektorunu inkişaf etdirməyə, dünya iqtisadiyyatını inteqrasiya edilməsinə dəstək verdi.

**3.Azərbaycanın maliyyə-bank sisteminin inkişafının təhlili.** Təsərrüfat prosesində maliyyə-bank sektoru münasibətləri iqtisadiyyatın dinamik inkişafının əsasını təşkil edir. Bu münasibətlər sistemində, banklar maliyyə vasitəçisi olaraq cəmiyyətin ehtiyatı olan maliyyə imkanlarını bir mərkəzdə toplayır və onu maliyyə defisiti yaranmış digər sahələrə yönəldir. Bir sıra ölkələrdə banklar hətta investisiya və sığorta şirkətləri ilə birləşməyə də gedirlər.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra müstəqil bank sisteminin, o cümlədən Mərkəzi Bankın yenidən qurulması üçün hüquqi baza yaradıldı. Bazar iqtisadiyyatı prinsipli ölkə kimi Azərbaycanda birinci pillədə Mərkəzi Bank, ikinci pillədə kommersiya bankları durur.

İşdə qeyd edilir ki, Azərbaycan təcrübəsi göstərdi ki, banklar təcrid olunmuş şəkildə fəaliyyət göstərə bilməzlər. Öz iqtisadi funksiyalarını yerinə yetirmək üçün onlara bir sıra vacib xidmətlər tələb olunur.

Bank sistemi ümumi pul-kredit mexanizmi çərçivəsində fəaliyyət göstərən milli bankların və kredit təşkilatların müxtəlif növlərinin məcmusudur. 10 dekabr 2004-cü il tarixli "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Mərkəzi Bankın fəaliyyətinin əsas məqsədi öz səlahiyyətləri daxilində milli valyuta olan manatın, həmçinin bank və ödəniş sistemlərinin sabitliyini və inkişafını təmin etməkdir .

Bank sisteminin tərkibinə daxil olan elementlər qarşılıqlı hüquqi münasi-



bətlərlə əlaqədədirlər. Hansısa səbəbdən banklardan biri fəaliyyətini dayandırdıqda belə sistem öz fəaliyyətini davam etdirir. Bu sistem 2016-2017-ci illərdə Azərbaycanda bir sıra banklar bağlandıqda fəaliyyət göstərdi və yarana bilən problemlərin qarşısı alındı.

Bank sisteminin həmişə dinamik vəziyyətdə olmasının aşağıdakı səbəbləri vardır: bank sistemi daima inkişaf edir və təkmilləşir, bank sistemi daxilində dayanıqlı əlaqələr yaranır və formalaşır.

Respublikada bazar iqtisadiyyatına keçid və onun bərqərar olduğu dövrdə bankların xarakteri dəyişdi, onların artıq dövlət idarəetmə aparatının bir hissəsi olmaq missiyasına son qoyuldu.

Artıq Azərbaycanda banklar hüquqi və fiziki müştərilərə göstərdikləri xidmət toplusunu getdikcə genişləndirməkdə maraqlıdırlar. Yeni xidmət sahələrinin yaranması və genişlənməsi maliyyə qurumlarının təsiri altında baş verir. Bank xidmətlərinin çoxalması maliyyə xidmətləri sahəsinin tənzimlənməsini tələb edir. Bu vəziyyət Azərbaycanda da ildən ilə artmaqdadır. Bunun üçün bankların, qiymətli kağizlar üzrə dilerlərin, siğorta işinin təşkili ilə məşğul vasitəçilərin və maliyyə əməliyyatları həyata keçirən qurumların hüquqi fəaliyyət sahəsi genişləndirildi.

Müəllif xüsusi qeyd edir ki, Azərbaycan təcrübəsi göstərir ki, son illər ərzində banklar cari xərclərin artmasına baxmayaraq, daha müasir və məhsuldar avtomatlaşdırılmış sistemlərinin tətbiqinə xüsusi fikir verir, onlardan geniş istifadəsinə maraq göstərirlər. Belə tənzimləmə prosesi xidmət sahələrinin çoxalması və hüquqi fəaliyyət sahəsinin genişləndirilməsi ilə əlaqədardır.

Bank sisteminin inkişafına bir sıra makroiqtisadi və siyasi amillər təsir edir. İşdə bank sisteminə təsir edən başlıca amillər göstərilmişdir:

1. Əmtəə-pul münasibətlərinin inkişaf səviyyəsi.
2. Qanunvericilik bazasının inkişaf səviyyəsi
3. İqtisadiyyatda bankların rolu və mahiyyəti haqqında ümumi təsəvvürlər.
4. Mövcud vergi siyasəti.
5. Mövcud banklararası rəqabətin səviyyəsi.
6. İctimai və iqtisadi qaydalar, onların məqsədli təyinatları və sosial istiqamətləri.
7. Siyasi amillər.
8. Ölkənin iqtisadi siyasətindəki dəyişikliklər, iqtisadi inkişafın səviyyəsi.

İşdə aparılan hesablamalar göstərdi ki, Azərbaycanda 2013-2017-ci illərdə bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyası olan maliyyə təşkilatlarının sayı 1,1 dəfə, bankların sayı 1,4 dəfə azalmış, o cümlədən dövlət

banklarının sayı 2 dəfə artmış, özəl bankların sayı dəyişməmiş, xarici kapitallı bankların sayı isə 1,5 dəfə, kiçik kapıitallı bankların sayı 1,5 dəfə azalmışdır.

Nizamnamə kapitalının 50%-dən 100%-ə qədərini təşkil edən bankların sayı 1,14 dəfə artmış, nizamnamə kapitalının 50%-dən az olan hissəsini təşkil edən bankların sayı 1,9 dəfə artmış, xarici bankların yerli filiallarının sayı və ilin əvvəlindən lissenziya alan bankların sayı dəyişməmiş, ilin əvvəlindən lisenziyası ləğv edilən bankların sayı sıfırdan 2-yə qədər ədəd artmış, onların yerli filiallarının sayı 1,4 dəfə azalmışdır.

O cümlədən, dövlət banklarının yerli filiallarının sayı 1,2 dəfə artmış, özəl banklar üzrə 1,42 dəfə azalmış, yerli fillialları olan bankların sayı 1,4 dəfə, bankların şöbələrinin sayı 1,04 dəfə azalmış, bankların yerli nümayəndəliklərinin sayı 1-dən sıfıra enmiş, xarici bankların yerli nümayəndələrinin sayı dəyişməz qalmış, bankların xaricdə fəaliyyət göstərən strukturlarının sayı 1,3 dəfə azalmış, o cümlədən törəmə bankların və filialları üzrə sayı dəyişməz qalmış, nümayəndəliklər üzrə 3,2 dəfə artmış, ilin əvvəlindən ləğv edilmə prosesi tamamlanmış bankların sayı dəyişməz qalmışdır.

**4. Azərbaycanda iqtisadi modernləşmənin maliyyə-bank mexanizmlərinin tədqiqi.** Maliyyə siyasəti öz praktiki təcəssümünü maliyyə mexanizmi vasitəsilə reallaşan dövlətin maliyyə tədbirlərində tapır. Maliyyə mexanizmlərinin təşkili üçün əmək bölgüsünün, eləcə də istehsal vasitələrinin "ağıllı" əlaqələndirilməsinə yönələn bütöv tədbirlər sistemi tətbiq olunur. Belə qaydalara maliyyənin idarə edilməsi orqanlarının yaradılması, idarətmə aparatının strukturunun qurulması, metodikaların, təlimatların, normaların, normativlərin işlənib hazırlanması aiddir.

Maliyyə mexanizmi maliyyənin təşkilini, tənzimlənməsini və planlaşdırmasını təmin edən təsisatlar sistemidir. Maliyyə mexanizmləri təsərrüfat mexanizminin tərkib hissəsidir. O maliyyə resurslarının formalaşması, məqsədli təyinatlı pul fondlarının əmələ gəlməsi və istifadəsi zamanı tətbiq olunan maliyyə münasibətləri üsuludur. Maliyyə mexanizmlərinin iqtisadiyyata və sosial sferaya təsiri onun strukturu və onun müxtəlif hissələrinin konkret vəzifələrin həllinə yönəlməsi ilə qiymətləndirirlir.

Maliyyə mexanizmlərinin üç növü fərqləndirilir: dövlət və bələdiyyənin maliyyə mexanizmləri, müəssisələrin, təşkilatların və idarələrin maliyyə mexnizmləri və sığorta mexanizmləri. Bundan əlavə maliyyə mexanizmlərinin strukturunda aşağıdakı funksional halqalar ayrılır: maliyyə resurslarının səfərbərliyə alınması, maliyyələşmə, stimullaşma və s. Həmçinin, maliyyə mexanizmlərinin aşağıdakı təşkilati-idarəetmə bloklara bölünməsi tətbiq olunur: maliyyə planlaşdırması və proqnozlaşdırması;operativ idarəetmə; konkret məqsədlər üçün ayrılan maliyyə resurslarının cəmi.



Ümumi maliyyə sisteminin dövlət və özəl (xüsusi) maliyyəyə bölünməsindən asılı olaraq dövlət maliyyə mexanizmlərini və özəl (xüsusi) maliyyə mexanizmlərini ayırmaq olar. Təsir aləti kimi maliyyə mexanizmlərində təşkilati və stimullaşdırıcı funksiyaları ayırmaq olar. Maliyyə mexanizmlərinin başlıca məqsədi bazar iqtisadiyyatının tsiklik inkişafı, yüksəlişlərin böhranlarla əvəz edilməsi zamanı iqtisadiyyatın normal fəaliyyət göstərməsi üçün kifayət qədər maliyyə resurslarının yaradılmasından ibarətdir.

Dissertasiyada qeyd edilir ki, maliyyə mexanizmlərinin tərkibinə daxil olan maliyyə resurslarının formalaşması və istifadə edilməsi maliyyə metodu, kreditləşmə metodu, vergi metodu, sığorta metodu ilə həyata keçirirlr. Eyni zamanda, bunu maliyyənin idarə edilməsinin ayrı-ayrı funksional elementləri olan maliyyə planlaşması və maliyyə proqnozlaşması metodları, maliyyənin operativ idarə edilməsi metodları, maliyyə nəzarəti metodları ilə həyata keçirmək olar.

Maliyyə mexanizmlərinin tərkibində ictimai istehsala təsir üzrə aşağıdakı funksional halqaları ayırmaq olar: maliyyə resurslarının səfərbərliyə alınması və istifadəsi mexanizmi, ictimai istehsalın maliyyə tənzimlənməsi mexanizmi, ictimai istehsalın maliyyə stimullaşması mexanizmi.

İşdə maliyyə mexanizmlərinin səmərəli fəaliyyət göstərməsinin əsas şərtləri göstərilir:

- maliyyə mexanizmlərinin obyektiv cəhətdən əsaslandırılması;
- iqtisadiyyatın inkişaf şəraitinə və təsərrüfatçılıq metodlarına uyğunluğu;
- maliyyə mexanizmlərinin istehsal amilləri və maliyyə münasibətlərinin subyektlərinin iqtisadi maraqları ilə əlaqəsi;
- maliyyə mexanizmlərinin tərkib elementlərinin qarşılıqlı əlaqəsi və onların qarşılıqlı tənzimlənməsi.

Bütövlükdə maliyyə mexanizmlərinin strukturu kifayət qədər mürəkkəbdir və beş qarşılıqlı əlaqəli elementdən ibarətdir: maliyyə metodları, maliyyə alətləri, hüquqi təminat, normativ təminat, informasiya təminatı. Kommersiya müəssisəsinin idarə edilməsinin maliyyə mexanizmləri – təsərrüfat mexanizminin tərkib hissəsidir, iqtisadi proseslərin və iqtisadi münasibətlərin tənzimlənməsinin maliyyə stimullarının, alətlərinin, formalarının və üsullarının məcmusudur.

Kommersiya banklarının optimal fəaliyyət göstərməsini təmin etməkdən ötrü onun sabit likvidliyi nəzərə alınmalıdır. Bunun üçün onun vəsaitləri (vasitələr) ilə bazar infrastrukturunun optimal əlaqələndirilməsi arasında qarşılıqlı əlaqəni xarakterizə edən institutlardan istifadə olunur.

Bank mexanizmlərindən istifadə edilməsi təsərrüfat fəaliyyəti prosesində

yaranan və mənfəət əldə edilməsinə yönələn konkret bank, maliyyə və sosial-psixoloji vəzifələrin həllini nəzərdə tutur. Bank mexanizmləri kommersiya bankının fəaliyyəti ilə şərtlənir, bu zaman onun idarə olunması və fəaliyyət göstərməsi müxtəlif bank əməliyyatlarının aparılması prosesində öz qiymətini alır.

İşdə belə bir müddəa əsaslandırılır ki, kommersiya bankının elmi-texniki siyasətinin işlənib hazırlanması yeni bank məhsullarının və xidmətlərinin icad edilməsi məqsədilə elmi axtarışın təşkili deməkdir.

Dissertasiyada bank multiplikatorunun iqtisadi artıma təsiri qiymətləndirilir. Qeyd edilir ki, bank multiplikatoru kreditlərin banklara, yaxud hökumətə verilməsindən asılı olmayaraq fəaliyyət göstərir. Bank multiplikatoru mexanizmi təkcə mərkəzləşdirilmiş kreditlərin verilməsindən qazanmır. O, mərkəzi bankın kommersiya banklarından qiymətli kağızları və valyutanı alan zaman fəaliyyət göstərə bilər.

İkipilləli bank sisteminin fəaliyyət göstərməsi pulun emissiyası bank (depozit, kredit) multiplikatorunun əsasında həyata keçirilir. Pulun multiplikasiyası prosesi kommersiya bankları və bank olmayan kredit təşkilatları tərəfindən aparılır. Ayrıca götürülən kommersiya bankı pulu multiplikasiya edə bilməz, bunun üçün kommersiya banklarından ibarət olan sistem lazımdır.

Depozit multiplikatoru kommersiya banklarının depozit hesablarında olan pul kimi çıxış edən multiplikasiya obyektini göstərir (məhz bu pullar multiplikasiya gedişində artır). Sərbəst ehtiyat - kommersiya banklarının sərəncamında olan və istənilən anda istifadə oluna bilinən resursların məcmusudur. Kommersiya bankları sisteminə məxsus olan sərbəst ehtiyat isə ayrıca götürülmşü kommersiya banklarının sərbəst ehtiyatlarından formalaşır.. Ayrıca götürülən kommersiya bankının sərbəst ehtiyatının ölçüsünü belə hesablamaq olar :

$$SE = V + K + MK \pm BAK – MEA - AƏ$$

burada SE - kommersiya banklarının sərbəst ehtiyatı;
K - kommersiya banklarının kapitalı;
V- kommersiya banklarının depozit hesablarında olan vəsaitlər;
MK - Mərkəzi Bankın kommersiya bankına verdiyi mərkəzləşdirilmiş kredit;
BAK - banklararası kreditlər;
MEA - Mərkəzi Bankın sərəncamında olan mərkəzləşdirilmiş ehtiyata edilmiş zəruri ayırmalar;
AƏ - kommersiya bankları tərəfindən aktiv əməliyyatların aparılmasına qoyulan resurslar.

Məcburi ehtiyatlar normativi - Mərkəzi bank tərəfindən deponentləşən və kredit təşkilatının ehtiyatda olan öhdəliklərinə faizlə münasibətdə məcburi ehtiyatların ölçüsüdür. Şəkil 1-də pul-kredit siyasətinin fəaliyyət sxemi verilmişdir






**Şəkil 1. Pul-kredit siyasətinin mexanizmi**

Təsərrüfat aktivliyini stimullaşdırmaqdan, istehsalın həcmini artırmaqdan ötrü yalnız müəyyən həddə qədər tədavüldə pul kütləsini artırmaq lazımdır. Pul kütləsinin həcminin həddən artıq artması neqativ nəticələri gətirən inflyasiya proseslərinin fəallaşmasını şərtləndirir və bütövlükdə iqtisadiyyata pozucu təsir göstərir.

Dövriyyəyə nağdsız pulların emissiyasının başlıca məqsədi hüquqi şəxslərin dövriyyə vəsaitlərinə olan əlavə tələbatın ödənilməsidir. Buna görə də bu əlavə vəsaitləri yaradan nağdsız pulların emissiyası mexanizmin mövcud olması vacibdir.

Şəkil 2-də bank tərəfindən iqtisadiyyatın artımının multiplikator funksiyasının reallaşmasının sadələşmiş sxemi təsvir edilmişdir.




**Şəkil 2. Bank – iqtisadiyyatın artımının multiplikatoru kimi**

Azərbaycanda ikipilləli bank sistemi mövcud olduğundan emissiya mexanizmi bank multiplikatoru əsasında fəaliyyət göstərir.

**5. Bank fəaliyyətinin rentabelliyinin hesablanması və təhlilində Düpon metodu və Qordon modelinin üstünlüklərinin müqayisəli təhlili.**

Banklarda rentabelliliyinin xarakteristikası və təhlili üçün bütövlükdə çox zaman ekompozisiya yanaşmasından və ya Düpon firmasının metodundan istifadə edilir. Bu metodun mahiyyəti xüsusi kapital vahidinə düşən mənfəətin kəmiyyətinə təsir edən əsas amillərin müəyyən edilməsindən ibarətdir.

Bankın rentabelliliyinin müəyyən edilməsinin digər məlum metodu Qordon modeli adlanır. Bu modelə uyğun olaraq rentabellik ilin sonuna və ya cari dövrdə bank tərəfindən emissiya olunan qiymətli kağızların gəlirlilik dərəcəsi kimi müəyyən edilir. Sxematik olaraq o, aşağıdakı kimi təsvir olunur:

Ümumi rentabellik = $\frac{D_1}{P_0} + \frac{P_1 - P_0}{P_0}$

Burada $D_1$ - ilin sonuna dividentlər;

$P_0$ qiymətli kağızların alış qiyməti;

$P_1$ - səhmlərin satış qiyməti.

Beynəlxalq bank təcrübəsində istifadə olunan rentabelliyin hesablanmasının üçüncü metodu Şarp modelidir:

$$E(R) = R_f + (E(R_m) - R_f) \cdot 6$$

Burada E(R)- gəlirliliyin gözlənilən dərəcəsi (hesablaşma kəmiyyət);

$R_f$ - risksiz faiz dərəcəsi (məsələn, qiymətli kağızlar üzrə);

$R_m$ - risksiz dərəcədən və risk mükafatından yaranan gəlirliliyin bazar dərəcəsi;

$(E(R_m)-R_f)$ – risk mükafatı;

$E(R_m)$ - gözlənilən bazar dərəcəsi;

6 - bazar riskinin düzəliş (təshih) əmsalı.

Bu metodun köməyi ilə hesabat dövrünün başlanğıcında bankın qiymətli kağızlarının gözlənilən gəlirlilik dərəcəsi kimi bu bankın rentabelliliyi hesablanır.

Praktikada Azərbaycanda bank sistemində bankın səmərəli fəaliyyətinin qiymətləndirmə sistemi, Düpon firması modelinin tətbiqi imkanlarının öyrənilməsi ilə məhdudlaşdırılıb. Belə ki, bu model çoxamillidir və rentabelliyin ümumi göstəricilərinin təhlili məqsədilə hesabat göstəriciləri əsasında qurulmuş və digər modellərə nisbətən tələbatı daha yüksək dərəcədə ödəyir.

Dünya bazarında neftin qiymətinin aşağı düşməsi və ABŞ dollarının uçot dərəcəsinin qalxması nəticəsində 2015-ci ildə Azərbaycanda iki dəfə milli valyuta olan manatın devalvasiyası baş verdi. Azərbaycan manatının məzənnəsi dəyişdikdən sonra bir çox banklarda problemli kreditlərin sayı da artdı. Bu situasiyada bir çox banklar öz müştəriləri üçün kredit yükünü yüngülləşdirməkdən ötrü onlara güzəştlərə getdilər və kredit borcunu restruktrizasiya etməyi təklif etdilər.

AMB banklara qeyri-kafi və təhlükəli aktivlərinə görə ehtiyat dərəcəsini dəyişdirmişdir. Bank sektorunun əks tsiklik prudensial tənzimlənməsi və ma-



liyyə stabilliyinə dəstək çərçivəsində onun (bank sektorunun) makroiqtisadi risklərinə təsirini neytrallaşdırmaq üçün AMB qeyri-kafi aktivlərə görə ehtiyat dərəcəsini 25%-ə qədər, təhlükəli aktivlərə görə ehtiyat dərəcəsini 50%-ə qədər azaltmışdır.

“Fitch Ratings” beynəlxalq reytinq agentliyinin 2015-ci ildə açıqladığı məlumata görə Azərbaycanda manatın üzən məzənnə rejiminə keçməsi neftin aşağı qiymətinin doğurduğu fiskal siyasətdə dəyişikliyi dəstəkləyəcəkdir. Keçən müddət ərzində devalvasiya kreditlərin dollarlaşmasının yüksək səviyyəsi səbəbindən bank sektorunun aktivləri nəzərə çarpacaq dərəcədə azaldı.

**6. Maliyyə-bank mexanizminin modernləşməsi üzrə pul-kredit seqmentinin qiymətləndirilməsi.** Müasir bank sistemi pul multiplikasiyası prosesini tənzimləyən Mərkəzi bankdan və multiplikasiya mexanizmi ilə işləyən kommersiya banklardan ibarətdir. Ümumi halda pul multiplikatoru düsturunu pul təklifinin pul bazasına nisbəti kimi təsvir etmək olar:

$$M = \frac{P^t}{PB}$$

burada, *M* – multiplikator;

$P^t$ – pul təklifi (P=nağd pul+tələbat olunanadək depozitlər)

*PB* – pul bazası (*PB* = nağd pul+ehtiyatlar).

Bu düsturdan digər formulu almaq olar:

$$P^t = M \times PB$$




**Şəkil 3. Pul kütləsinin həcminin tənzimlənməsi**

Azərbaycanda 2001-2017-ci illər ərzində pul icmalı təhlil olunarkən 2008-ci ilə nisbətən xalis xarici aktivlər 3,8 dəfə, xalis daxili aktivlər 1,6 dəfə (ən yüksək göstərici 2016-cı ildə olub), iqtisadiyyata tələblər 1,6 dəfə (ən yüksək göstərici 2015-ci ildə olub), geniş pul kütləsi 2,7 dəfə, geniş pul kütləsi manatla 2,1 dəfə artmış (ən yüksək göstərici 2014-cü ildə olub), manatın dövretmə sürəti isə 1,11 dəfə azalmışdır (ən yüksək göstərici 2014-cü ildə olub).

Azərbaycanda 2006-2017-ci illərdə pul aqreqatları təhlil olunan zaman

2006-cı ilə nisbətən 2017-ci ildə geniş mənada pul kütləsi ($M_3$) 6,6 dəfə, o cümlədən, $M_2$ pul aqreqatı 5,5 dəfə (ən yüksək göstərici 2014-cü ildə olub), o cümlədən $M_1$ pul aqreqatı 5,7 dəfə (ən yüksək göstərici 2014-cü ildə olub), o cümlədən banklardan kənar nağd pul ($M_0$) 5,7 dəfə (ən yüksək göstərici 2013-cü ildə olub), manatla tələb olunanadək depozitlər 5,8 dəfə; manatla müddətli depozitlər 6,5 dəfə (ən yüksək göstərici 2014-cü ildə olub), SDV-də depozitlər 7,9 dəfə (ən yüksək göstərici 2015-ci ildə olub), pul multiplikatoru kimi $M_3$ pul aqreqaının pul bazasına nisbəti müvafiq olaraq 1,4 dəfə (ən yüksək göstərici 2015-ci ildə olub), $M_2$ pul aqreqatının manatla pul bazasına nisbəti isə 1,1 dəfə azalmışdır (ən yüksək göstərici 2014-cü ildə olub).

İşdə aparılan bankların kredit risklərinin təhlili göstərir ki, risklərin idarə edilməsində optimal yanaşma mövcud deyildir. Sövdələşmə üzrə qərarın qəbul edilməsi müxtəlif banklarda kreditin məbləğindən, sövdələşmə riskindən və kredit məhsulundan asılı olaraq müxtəlif formada həyata keçirilir.

**7. Maliyyə-bank mexanizmlərinin təkmilləşdirilməsinin investisiya istiqamətinin tədqiqi.** Dövlətin iqtisadi siyasətində əsas amillərdən biri də düzgün investisiya siyasətinin yeridilməsidir. Buna görə də dövlət investisiya siyasətinin əsas məqsədi investisiya üçün sərfəli mühitin formalaşdırılmasıdır.

Bununla bərabər, yüksək risk müqabilində öz kapitalını dövlətin qiymətli kağızları, sənaye müəssisələri və bankların səhmləri şəklində (zəmanətlə) yerləşdirməklə qazancdan qat-qat artıq qazanc əldə etmək imkanı yaranır. İnvestisiya qoyuluşu əsas vəsaitlərin keyfiyyətcə dəyişməsinə və istehsalatın strukturunu çevik formaya salmağa imkan verir. Modernləşmə prosesi gedən iqtisadiyyatda ilk növbədə elə investisiyalar tələb olunur ki, az kapital məsrəfi ilə daha böyük istehsal gücü yaratmaq mümkün olsun.

İnvestisiya mənbələrinin müəyyənləşdirilməsi investisiya qoyuluşunda böyük rol oynayır. İqtisadiyyatı zəif ölkələr xarici investisiyanın cəlb edilməsində maraqlıdır. Ancaq nəticədə yerli istehsal azalır, idxal ixracı üstələyir, xarici borcun ölkə büdcəsinə nisbəti yüksəlir.

İnvestisiya layihəsinin səmərəliliyinin ikinci göstəricisi kimi onun rentabelliyi götürülür. Bu istiqamətdə Azərbaycanda görülən fəaliyyət digər ölkələr üçün nümunə ola bilər. Ölkədə xarici investisiya ilə bərabər milli investisiya üçün əlverişli şərait yaradılır, ixrac məhsulların həcminin artması üçün güzəştli vergi və gömrük qaydaları qəbul edilir.

Azərbaycan Respublikasında investisiya qoyuluşunu təşviq etmək və nəticə olaraq sahibkarlıq fəaliyyətini inkişaf etdirmək üçün bir sıra qanunlar qəbul edilmişdir. Azərbaycanda investisiya siyasətinin təkmilləşdirilməsində maliyyə-bank mexanizminin roluna xüsusi diqqət edilir. Azərbaycan iqtisadçısı Ə. Ələkbərov hesab edir ki, ölkəmizin regionlarının əksəriyyətində



kreditləşmə ilə məşğul olan bank və qeyri-bank kredit təşkilatlarının filiallarının açılmasına və onların fəaliyyətinin yerli xüsusiyyətlərə uyğunlaşdırılmasına diqqətin artırılması vacibdir.

Bank kapitalının inkişafı Azərbaycan iqtisadiyyatının inkişafında xüsusi yer tutur. Həm inkişaf etmiş dinamik Qərb bank sisteminin, həm ilkin təşəkkül dövrünü keçmiş Azərbaycanın bank sektorunun təcrübəsi göstərir ki, bankların səmərəli fəaliyyəti yüksək idarəçiliyin təşkilindən və müasir menecmentdən asılıdır. Azərbaycanda bankların fəaliyyət keyfiyyəti ilk növbədə özünü 2015-2017-ci illər iqtisadi böhran zamanı özünü biruzə verdi.

Azərbaycan Respublikasının bank qanunvericiliyində investisiya fəallığını artırmaq üçün iqtisadiyyatın inkişafına bütün mərhələlərinə təsir mexanizmi təkmilləşdirilmiş, dövlətin pul-kredit sahəsində rolu dəqiqləşdirilmişdir. Mərkəzi Bank tərəfindən vacib antiinflyasiya tədbiri kimi pul-kredit emissiyası nəzarətdə saxlanılmışdır. Digər tərəfdən dövlət tərəfindən iqtisadi inkişafın prioritet sahələri və diqqət tələb edən sahələr müəyyənləşdirilmiş, həmçinin güzəştli kreditlərin təyinatı üzrə istifadə edilməsi üzərində nəzarət gücləndirilmişir.

Azərbaycanda investisiya siyasətini həyata keçirmək üçün ilk növbədə ona dəstək olacaq mühit yaradılması əsas götürülmüşdür. Regionlatın investisiya təşəbbüsü orta və xırda sahibkarlığı inkişaf etdirməyə və mərkəzdə yerləşən kredit təşkilatlarını regionlara əlavə sərmayə qoymağa imkan verir.

**9. Maliyyə-bank resurslarının innovasiya yönümlülüyünün yüksəldilməsi yollarının müəyyənlişdirilməsi.** Dissertasiya işində maliyyə sferasında innovasiya siyasəti probleminə xüsusi diqqət yetirilir. Fəal innovasiya siyasəti maliyyə-kredit sistemində mövcud şəraitin prinsipial olaraq yenilənməsini təmin edir.

İnnovasiya cəlbedciliyinin maliyyə-kredit sistemində yüksəlməsi respublika sənayesinin bir çox sosial və iqtisadi göstəricilərinə ciddi təsir göstərir. Bank sistemində kredit siyasəti əhəmiyyətli dərəcədə investisiya siyasətinin istiqamətlərini müəyyənləşdirir.

Dissertasiya işində əsaslanırılan əsas müddəalardan biri də odur ki, maliyyə-bank resurslarının innovasiya yönümlüyü bir sıra institusional dəyişikliklərin aparaılmasını tələb edir. Həmin dəyişikliklər bütünlükdə maliyyə sektorunun investisiya cəlbedciliyi yüksəldilməsinə aiddir.

İşdə qeyd edilir ki, investisiya prosesində bankların real iştirakını təmin etmək üçün yeni formaların axtarışı vacibdir. Çünki, bankların modernləşmə prosesinə marağı və iştirakı iqtisadi artımın vacib şərtlərindəndir.

Yeni investisiya sxemləri tapılmalı, investisiya layihələri ilə işlənilməli, yalnız yüksək gəlir gətirən deyil, yeni iş yerləri yaradan, mərkəzdən uzaq

regionların sosial-iqtisadi inkişafını təmin edən təşəbbüslər maliyyə resurslar ilə dəstəklənməlidir.

Azərbaycanda aparılan islahatlar inflyasiyanın nəzarətdə saxlanması səbəbindən milli valyuta olan manatın möhkəmlənməsinə kommersiya banklarının Mərkəzi Bank vasitəsilə pul-kredit faiz dərəcələrinin aşağı salınmasına, bankların xarici valyuta ehtiyatlarının artmasına səbəb ola bilmişdir. Azərbaycanda sahibkarların xaricdən kredit alması praktikası hələ geniş yayılmamışdır. Bu, bir tərəfdən xarici bankların xarici nüfuzlu audit təşkilatlarının rəyi olmayan sahibkar təşkilatlarına kredit vermək istəməməsindən irəli gəlir. Xarici ölkələrdə innovasiya layihələrinin öz məsrəfini çıxartma müddətləri barədə təxmini müddətlər vardır. İşdə qeyd edilir ki, Azərbaycanda bu sahədə hələ geniş tədqiqatlar aparılmamışdır.

Kommersiya banklarının investisiya fəaliyyəti biznes sahələrinə qoyulan pul, mülkiyyət və əqli dəyərlərin gəlir gətirən əməliyyatıdır.

Bankların kredit fəaliyyətinin fəallaşması və dövlətin pul-kredit siyasətinin istiqamətlərinin reallaşması üçün aşağıdakılar məsləhət bilinir: banklardan vergitutma sisteminin təkmilləşdirilməsi, məcburi ehtiyat siyasətinə dəyişikliklərin edilməsi; kommersiya banklarının real sektora kredit üçün yenidən maliyyələşmə praktikasının inkişafı; subordinar kreditləşmə bankların kreditləşdirilməsinə stimullaşdırılması strategiyasının reallaşdırılması çərçivəsində bank fəaliyyəti risklərinin azaldılması və bank kreditlərinə tələbatın artması şərtlərinin təmin edilməsi mexanizmin işlənməsi və tətbiqi.

İşdə qeyd edilir ki, müasir dovrdə Azərbaycanda bank sisteminin təkmilləşdirilməsinin əsasında duran əsas amillər aşağıdakılar hesab edilə bilər:

-bank sistemində tənzimləyici və dövlətin səlahiyyətli nümayəndəsi kimi Mərkəzi Bankın səlahiyyətlərinin dəqiqləşdirilməsi və məsuliyyətinin artırılması;

-bank sistemi haqqında qanunvericiliyin və digər hüquqi-normativ aktların qəbulu;

-iqtisadiyyatda özəlləşdirmənin keçirilməsi, sahibkarlar təbəqəsinin formalaşması, müasir şəraitdə sağlam biznes-bank münasibətlərin qurulması və inkişafı;

-inflyasiyanın aşağı səviyyədə saxlanması, bank kreditlərinə tələbatın artması;

-Azərbaycanın iqtisadi inkişafının yüksək templə artması, iqtisadiyyatda qeyri-neft sektorunun həcminin artması;

-bank sistemində rəqabətin artması, özəl banklara verilən tələbin artırılması, əhalinin banklara inamının artması.

İşdə aparılan Azərbaycanda bank sektorunun formalaşması prosesinin



təhlili göstərdi ki, investisiya siyasətinin hazırlanması çox mürəkkəb bir prosesdir və bir sıra şərtlərə bağlıdır.

İşdə xüsusi vurğulanır ki, Azərbaycanın bank sisteminin balanslı olması iqtisadi inkişafdan irəli gələn məsələdir. Bank sektorunda iri, aparıcı, çoxprofilli banklarla yanaşı, ayrıca bir regionla iqtisadiyyat sahəsi və ya özünün topladığı biznesmenlər qrupu ilə işləyən, ümumi bank əməliyyatları ilə yanaşı investisiya layihələrində iştirak edən kiçik banklara da ehtiyac vardır.

**9.Modernləşmə prosesində maliyyə-bank institutlarının rəqabət-qabiliyyətliliyinin artırılması istiqamətlərinin müəyyənləşdirilməsi.** İsdə qeyd edilir ki, dövlət kommersiya banklarının ümummilli layihələrdə iştirakını cəlbedici etmək üçün bir sıra iqtisadi alətlərdən istifadə edir. Bankların öz inkişaflarına diqqət etməsi onların rəqabət qabiliyyətlərini artırmaqla yanaşı, müştəri kontingentinin artmasına və gəlirinin çoxalmasına səbəb olur.

Rusiyanın "RİA Reytinq" iqtisadi mərkəzinin ekspertləri MDB ölkələrinin 200 ən böyük banklarının reytinqində 2016-cı il üçün Azərbaycan Beynəlxalq Bankına reytinqdə 20-ci yeri verdilər. Dörd il əvvəl isə ABB 33-cü yerdə qərarlaşmışdı və siyahıda yeganə Azərbaycan bankı idi. Azərbaycan ölkə banklarının aktivlərinin müsbət dinamikasına görə artıq ikiyüzlikdə 9 bankla təmsil olunur.

"Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə isə maliyyə bazarının inkişafı üzrə konkret fəaliyyət istiqamətləri nəzərdə tutulmuşdur. Strateji hədəf kimi dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılması, maliyyə bazarlarının inkişafı, infrastrukturun gücləndirilməsi, tənzimləmə və nəzarət mexanizminin təkmilləşdirilməsi və maliyyə savadlılığının yüksəldilməsi elan edilir.

Maliyyə xidmətləri sektorunda prioritetlərin həyata keçirilməsi nəticəsində ildən ilə real ÜDM-in artmasına, dünya iqtisadiyyatına inteqrasiya etməklə, rəqabət qabiliyyətinin artmasına, bank sektorunun gəlirliliyinin artmasına, risk idarəetməsi proseslərinin keyfiyyətinin artmasına, biznes mühitinin yaxşılaşmasına, özəl sektorun investisiya qoyuluşunun güclənməsinə, maliyyə sisteminin infrastrukturunun güclənməsinə, Neft Fondundan büdcə köçürmələrinin azalmasına gətirib çıxması gözlənilir.

Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli Fərmanına uyğun olaraq, qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta, kredit təşkilatları (bank, bank olmayan kredit təşkilatları və poçt rabitəsinin operatoru) və ödəniş sistemləri fəaliyyətinin lisenziyalaşdırılması, tənzimlənməsi və nəzarəti, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində nəzarət sisteminin təkmilləşdirilməsini, həmçinin bu

sahələr üzrə nəzarət sisteminin şəffaflığını və çevikliyini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxs yaradıldı.

Təhlil göstərir ki, Azərbaycanda elektron bankinq və distant bank xidməti üçün bütün imkanlar mövcuddur. İnsanlar informasiya texnologiyaları yeniliklərinə çox maraq göstərirlər.

Azərbaycanın strateji inkişaf planlarının uğurla həyata keçirildiyi şəraitdə milli bank sisteminin peşəkarlaşması, dövrün tələblərinə cavab verməsi, beynəlxalq maliyyə dairələri ilə bağlanması vacib məsələlərdən hesab edilir. Ancaq Azərbaycanda müasir bank sisteminin formalaşması tarixi çox olmadığından bankların təkmil bank texnologiyalarına keçməsi, öz müştəriləri ilə münasibətlərini müasir tələblər səviyyəsində qurması, hələ də dövr tələblərinə tam cavab vermir.

İşdə göstərilir ki, 2017-ci ilin iyul ayı üçün Azərbaycan bank sektorunda ilk 5 bankın ümumi məcmuda çəkisi 32 % olmuşdur. Bu vəziyyətdə iri banklar gəlirin çoxsunu öz üzərinə götürməklə yanaşı, bank risklərinin də əksər hissəsinin öz üzərlərinə götürmüş olurlar. Ancaq böhran dövründə daha çox riskə malik bankların problemlərinin artması dövlətin də maliyyə stabilliyini şübhə altına ala bilər.

Müasir dövrdə bankların əksəriyyəti qiymət rəqabəti deyil, xidmət keyfiyyətinin artmasına, müxtəlif yollarla daimi müştəri korpusunu formalaşdırmağa, müsbət imicini yaratmağa çalışırlar. Milli bank sisteminin qurulmasında maliyyə institutlarının stimullaşdırılması, bank bazarı infrastrukturunun genişlənməsi, həm kiçik, həm iri bankların inkişafının təmin edilməsi vacib məsələlərdən hesab edilir.

Azərbaycan nümunəsində inflyasiyanın nəzarətdə saxlanılmalı, makroiqtisadi göstəricilər yaxşılaşdırılımması, investisiya mühitinin qorunması əsas prioritetlərdən hesab edildi.

Bank rəqabətinin gücləndiyi bir zamanda bank kapitallaşması üçün müvafiq addımların atılmasının əhəmiyyəti artır. Bunun üçün Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası makroprudensial nəzarətin həyata keçirilməsi, maliyyə bazarlarında davamlı və hərtərəfli nəzarətin həyata keçirilməsi, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində nəzarətin təmin edilməsi istiqamətində ciddi iş aparır.

Dissertasiya işində ölkə iqtisadiyyatının modernləşdirilməsinin maliyyə-bank mexanizmlərinin təkmilləşdirilməsinin əsas vəzifələri xüsusi olaraq qeyd edilmiş, həmin vəzifələrin həll edilməsi ilə bağlı tövsiyələr verilmişdir. Bank sektorunda təxirəsalınmaz fəaliyyətlər, dövlətin maliyyə siyasə-



tində mühüm istiqamətlər, onların reallaşdırılması mexanizmləri göstərilmişdir. Eyni zamanda işdə bu siyasətin reallaşdırılması ilə əldə edilməsi ehtimal edilən nəticələr göstərilmişdir.

**Dissertasiya mövzusu üzrə aşağıdakı elmi əsərlər dərc edilmişdir :**

1. F.A.Mirzəzadə. İqtisadi modernlşmə prosesinin konseptual dəyərləndirilmələri. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. Elmi əsərlər. № 2, 2014, s.126 – 134.

2. F.A.Mirzəzadə. Azərbaycan iqtisadiyyatının ilkin modernləşmə istiqamətləri. Beynəlxalq hüquq və inteqrasiya problemləri. № 40 (40), 2014, s. 475 - 483.

3. F.A.Mirzəzadə. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının yerinə yetirilməsində kooperasiya münasibətlərinin rolu. Regional iqtisadi siyasət və kooperasiya münasibətlərinin inkişafı. Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 22 noyabr 2014-cü il, s. 283 - 286.

4. F.A.Mirzəzadə. Maliyyə bank vəsaitlərinin innovasiya yönümünün təminatı. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. Elmi əsərlər. № 2, 2015, s.142 – 146.

5. F.A.Mirzəzadə. İqtisadiyyatının modernləşməsi sahəsində investisiya layihələrinin səmərəliliyinin artırılmasının bəzi yolları. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsi. Xəbərlər. İctimai və humanitar elmlər seriyası. № 1, 2015, s. 282 - 290.

6. Ferhad A. Mirzezade. Ekonomik Modernleşme Sürecini Etkileyen Faktörler. Kafkaz Üniversitesi Sosyal Bilimler Enstitüsü dergisi. Number 16, autumn 2015-ci yıl., s. 97-108

7. Мирзазаде Ф.А. Способы оценки рациональности инвестиций. Научное обозрение. Москва, № 12, 2015, с.333 – 339.



**Мирзазаде Фархад Айдын оглы**

## Совершенствование финансово-банковских механизмов в процессе модернизации азербайджанской экономики

### Резюме

В диссертационной работе исследованы проблемы финансово-банковских механизмов модернизации азербайджанской экономики, разработаны методические подходы и практические рекомендации по их совершенствованию.

В первой главе «Теоретико-методологические основы экономической модернизации» рассмотрены теоретические подходы к исследованию экономической модернизации, ее сущность, формы, роль в экономическом развитии, а также основные направления. Отмечена необходимость применения финансово-банковских механизмов в целях ускорения экономического роста.

Во второй главе «Организационно-экономические проблемы финансово-банковских механизмов модернизации экономики Азербайджана» исследованы структурные элементы механизмов управления финансами, проведена оценка влияния банковского мультипликатора на экономический рост, осуществлен анализ денежно-кредитного сегмента финансово-банковских механизмов модернизации экономики.

В третьей главе диссертации «Повышение эффективности финансово-банковских механизмов процесса модернизации экономики Азербайджана» рассматриваются вопросы инвестиционных направлений совершенствования финансово-банковских механизмов, ускорения инновационной направленности финансово-банковских средств, повышения конкурентоспособности финансово-банковских институтов в процессе модернизации экономики республики.

В заключении автор характеризует полученные в результате проведенного исследования выводы и конкретные рекомендации, соответствующие поставленным целям и задачам.



**Farhad Aydin Mirzazadeh**

## IMPROVEMENT OF FINANCIAL AND BANK MECHANISMS IN THE COURSE OF MODERNIZATION OF THE AZERBAIJANI ECONOMY

### Summary

In dissertation work problems of financial and bank mechanisms of modernization of the Azerbaijani economy are investigated, methodical approaches and practical recommendations about their improvement are developed.

In chapter 1 of dissertation **"Theoretic and methodological basics of economic modernization"** are covered theoretical approaches to a research of economic modernization, its essence, forms, a role in economic development and also the main directions of one. Need of use of financial and bank mechanisms for acceleration of economic growth is noted.

In chapter 2 of dissertation **"Organizational and economic problems of financial and bank mechanisms of modernization of Azerbaijan economy"** are investigated structural elements of mechanisms of management of finance, assessment of influence of the bank animator on economic growth is carried out, the analysis of a monetary and credit segment of financial and bank mechanisms of modernization of economy is carried out.

In chapter 3 of dissertation **"Increase of efficiency of financial and bank mechanisms in process of modernization of Azerbaijan economy"** questions of the investment directions of improvement of financial and bank mechanisms, accelerations of orientation of financial and bank means, increases in competitiveness of financial and bank institutes in the course of modernization of economy of the republic are considered.

In the conclusion the author characterizes the conclusions and concrete recommendations answering the objects and the tasks set at the beginning of work received as a result of the conducted research.

Formatı 60x84 $_{1/16.}$ Həcmi 1 ç.v.
Sifariş 470. Ofset kağızı №1. Sayı 100.

“AA - Poliqraf” istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilnişdir.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**МИРЗАЗАДЕ ФАРХАД АЙДЫН ОГЛЫ**

# СОВЕРШЕНСТВОВАНИЕ ФИНАНСОВО-БАНКОВСКИХ МЕХАНИЗМОВ В ПРОЦЕССЕ МОДЕРНИЗАЦИИ АЗЕРБАЙДЖАНСКОЙ ЭКОНОМИКИ

Специальность: 5307.01 – «Экономическая теория»

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по экономике

**Б А К У - 2 0 1 8**